UOT: 339

*Nəsimi Arif oğlu KƏLƏŞOV*
*magistr*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC )*
*nasimi.kalashov2001@gmail.com*

*Elmi rəhbər: i.e.n., dos. Adil Şeyruz oğlu HÜSEYNOV*
*10.30546/4.71.73001.2024.015*

# XİDMƏTLƏRİN BEYNƏLXALQ TİCARƏTİ PERSPEKTİV SEQMENT KİMİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – xidmət ticarətinin inkişafının tədqiqindən, onun iqtisadiyyatdakı rolunun müəyyənləşdirilməsindən ibarətdir.

**Tədqiqatın metodologiyası** – tədqiqat işində sistematik yanaşma, kompleks təhlil, ümumiləşdirmə, müqayisəli təhlil, sintez metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – tədqiqatın nəticələrindən orta və uzunmüddətli dövr üçün xidmət ixracının inkişafı üzrə məqsədyönlü dövlət proqramının işlənib hazırlanması və dövlət iqtisadiyyatının davamlı artımını təmin etmək və ixracın resurs yönümlülüyünü şaxələndirmək məqsədilə ixracın artırılması ilə bağlı proqramlara daxil edilməsi mümkündür.

**Tədqiqatın nəticəsi** – müasir beynəlxalq xidmət ticarəti sürətlə genişlənir, bununla da milli iqtisadiyyatın və bütövlükdə dünya iqtisadiyyatının inkişaf etdirilməsinə böyük təsir göstərir və nəticə olaraq bütün ölkələrin sosial həyatında daha çox əhəmiyyət kəsb edir. Bu baxımdan qeyd etmək olar ki, bu proses elmi-texniki tərəqqinin daim artan tələbatının, eləcə də əmək bölgüsünün daha da dərinləşməsinin obyektiv nəticəsi sayılır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – tədqiqatda inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə xidmət ticarətinin sektoral strukturlarının xüsusiyyətləri göstərilmiş, son illər üzrə beynəlxalq xidmət ticarətinin dinamikası, sektoral strukturu araşdırılmış, xidmət ticarətinin hazırkı vəziyyətinə əsasən sürətli inkişaf edən sahələrdən olması qeyd olunmuşdur.

***Açar sözlər: beynəlxalq xidmət ticarəti, sektoral struktur, tənzimləmələr, dinamika.***

## *Giriş*

Xidmətlər istehsalda son dərəcə mühüm rol oynayır, həmçinin qlobal dəyər zəncirlərinin fəaliyyətinə təsir göstərir. Deməli, xidmətlərin beynəlxalq ticarəti qlobal iqtisadi inkişafın sürətləndirilməsinə imkan yaradır. Hazırda xidmətlərin mövcudluğu fərdin, o cümlədən bütövlükdə cəmiyyətin həyat keyfiyyətini müəyyənləşdirir. Ticarət sahəsində də xidmətlərin rolunu xüsusi qeyd etmək lazımdır. Xidmət mübadiləsi beynəlxalq ticarətin ən sürətlə inkişaf edən seqmentidir. Nəqliyyat, bank, rabitə, sığorta və s. kimi digər xidmətlərdən istifadə etmədən isə heç bir xarici ticarət əməliyyatı aparıla bilməz.

Buradan belə nəticəyə gəlmək olar ki, xidmətlər bazarı biznes əməliyyatlarının bir forması kimi dövlətlərin sabit iqtisadi artım templərini təmin etmək və öz vətəndaşlarının rifahını yüksək səviyyədə saxlamaq imkanlarını əks etdirən əsas meyar kimi çıxış edir. Müasir beynəlxalq xidmət ticarəti sürətlə genişlənir, milli iqtisadiyyatın və bütövlükdə dünya iqtisadiyyatının inkişafına getdikcə əhəmiyyətli təsir göstərir və bütün ölkələrin sosial həyatında getdikcə daha çox əhəmiyyət kəsb edir. Bu proses elmi-texniki tərəqqinin daim artan tələbatının və əmək bölgüsünün daha da dərinləşməsinin obyektiv nəticəsidir.

Ümumdünya Ticarət Təşkilatının qaydalarına əsasən, xidmətin istehsalçısı və onun alıcısı aparılan əməliyyatın yerindən asılı olmayaraq, xidmət beynəlxalq ticarətin subyektinə çevrilir. Rabitə, nəqliyyat, kompüter sferasında texnologiyaların intensiv inkişafı, qlobal internetin inkişafı və ümumiyyətlə, rəqəmsal iqtisadiyyatın qurulması ölkələrin xidmətlərin ticarəti sahəsinə daha çox

diqqət yetirməsini zəruri edir.

Beynəlxalq ticarətdə xidmət mübadiləsi mühüm və artan yer tutur. Tarixən hər bir xidmət növü ayrıca, özünəməxsus xüsusiyyətləri olan xüsusi fəaliyyət sahəsi kimi baxılırdı, xidmət sektoru isə bu fəaliyyət sahələrinin cəmi şəklində nəzərdən keçirilirdi. Bununla da, bir-birindən fərqli fəaliyyət sahələrinin sadə təsnifləndirilməsi aparılırdı. Ancaq xidmət sahələrinin bu şəkildə sadə təsnifləndirilməsi yalnız onların müxtəlifliyini əks etdirə bilər, lakin bu təsnifləndirmə xidmətlərin iqtisadi mahiyyətini, eləcə də marketinq zamanı xidmətlərin idarə edilməsi üsullarının xüsusiyyətlərini tam bildirmir. Bu baxımdan müxtəlif təsnifləndirmə üsullarının tətbiqinə və fərqli yanaşmaların nəzərdə tutulmasına zərurət yaranır. Bu zaman ilk olaraq xidmətləri kifayət qədər çox sayda və bir-biri ilə əlaqəli şəkildə növlərə bölmək olar.

Xidmət, əsasən qeyri-maddi olan konkret əmək məhsulu hesab edilir və dəyəri əməyin faydalı nəticəsinə əsaslanır. Belə ki, xidmətlər insanın şəxsi ehtiyaclarının ödənilməsində mühüm rol oynayır, eyni zamanda konkret istehlak dəyərlərinin, yəni intellektual, fiziki, sosial dəyərlərin əsas daşıyıcısı sayılır. Bir sözlə, xidmətləri alınan məhsulun faydası və ya dəyəri kimi nəzərdən keçirmək olar.

**Xidmətlərin təsnifatlandırılması**

Xidmət mübadiləsi hazırda beynəlxalq ticarətin qlobal bazar konyunkturasından, onun dəyişməsindən nisbətən az asılı olan, sürətlə inkişaf edən seqmenti sayıla bilər. Xidmət ticarəti istənilən ölkəyə öz ixracını diversifikasiya etmək, ən əsası gəlir və məşğulluğu artırmaq üçün şərait yaradır, müxtəlif imkanlar təqdim edir. Bu imkanlar xüsusilə, istər coğrafi, istərsə də sənaye baxımından xidmət bazarlarının artan müxtəlifliyi nəticəsində daim yeni iş yerlərinin yaradılması ilə bağlıdır. Belə ki, ölkələrin xidmətlərin beynəlxalq ticarəti sahəsinə sürətli və səmərəli inteqrasiyası bilavasitə dünya iqtisadiyyatına inteqrasiyasının optimal istiqamətlərindəndir. Bu, istənilən ölkəyə onun ən güclü rəqabət üstünlüklərindən istifadə etməyə də imkan verir.

Dünya ticarətində əsas xidmət növlərini aşağıdakı kimi sadalamaq olar:

- nəqliyyat, sığorta kimi xarici ticarətlə bağlı xidmətlər;
- idarəetmə xidmətləri, lisenziya ticarəti, nou-hau və s. kimi xidmətlər;
- beynəlxalq ödənişlərin, lizinq əməliyyatlarının və s. yerinə yetirilməsi ilə bağlı xidmətlər;
- əməkhaqqının ödənilməsi, sosial müavinətlər və s. kimi əmək qüvvəsinə dair xidmətlərin ticarəti;
- konsaltinq, daşınmaz əmlak, françayzinq, reklam və s. bu kimi xidmətlər;
- turizm, bank xidmətləri və s. kimi sosial-mədəni xidmətlər [4, s. 514].

Ümumdünya Ticarət Təşkilatı tərəfindən müəyyən edilmiş beynəlxalq xidmətlərin təsnifatına dair dörd bölgünü qeyd etmək olar.

- ➢ Sərhədlərarası xidmətin göstərilməsi. Bunlara misal olaraq xaricdə istehlakçıya telefonla hüquq məsləhəti verən hüquqi məsləhət şirkətlərini, internet istifadəçisinin xaricdə hansısa şirkətə məxsus proqram təminatı və ya tətbiqi satın alması və yükləməsini, müxtəlif onlayn təhsil xidmətlərini qeyd etmək olar.
- ➢ Xaricdə istehlak. Bura fiziki şəxslərin başqa ölkəyə səfərləri nəticəsində getdikləri yerdə sərf etdikləri xərcləri və əldə etdikləri xidmətləri aid etmək olar. Buna ən yaxşı nümunə kimi son vaxtlarda böyük göstəricilərin olduğu turizm sahəsidir.
- ➢ Müəssisə vasitəsilə xidmətin göstərilməsi. Hər hansı bir bankın digər ölkədəki filialının göstərdiyi maliyyə xidmətləri və ya xaricdə qurulmuş tikinti şirkətinin göstərdiyi podrat xidmətləri buna ən uyğun nümunə sayıla bilər.
- ➢ Fiziki şəxsin iştirakı ilə xidmətin göstərilməsi. Buraya peşəkar şəxsin öz adından və ya işlədiyi şirkətin adından müvəqqəti olaraq xaricə getməsi və əcnəbilərə xidmət göstərməsi aid edilə bilər [6, s. 148].

Xidmət sektoru mürəkkəb strukturu ilə xarakterizə olunur. Xidmətlərin istehlakı prinsipinə əsasən isə aşağıdakılar fərqləndirilir:

- ənənəvi xidmətlər (ticarət, nəqliyyat, qidalanma, rabitə, maliyyə, təhsil, səhiyyə və s.);

- qeyri-ənənəvi xidmətlər (turizm, maliyyə, bank işi, konsaltinq, audit, logistika, mühəndislik, təmizlik, informasiya-kommunikasiya texnologiyaları (İKT) və s.).

Xidmət ticarəti istənilən ölkəyə ixracı genişləndirmək, şaxələndirmək, gəlirləri və məşğulluğu artırmaq üçün əlavə imkanlar yaradır. Ancaq məlum məsələdir ki, inkişaf etmiş ölkələr beynəlxalq xidmət ticarətində lider olaraq qalırlar, inkişaf etməkdə olan və keçid iqtisadiyyatının olduğu ölkələr isə mövqelərini möhkəmlətməyə səy göstərirlər. Buradan belə nəticəyə gəlmək olar ki, xidmətlər bazarı biznes əməliyyatlarının bir forması kimi dövlətlərin sabit iqtisadi artım templərini təmin etmək və öz vətəndaşlarının rifahını yüksək səviyyədə saxlamaq imkanlarını əks etdirən əsas meyar kimi çıxış edir.

Hazırda xidmət ticarəti və onun araşdırılması olduqca zəruridir. Belə ki, dünya iqtisadiyyatında əsas anlayışlardan biri ölkənin xarici ticarət fəaliyyətinin nəticələrini əks etdirən tədiyyə balansının cari hesabıdır. Bu bölmənin tədiyyə balansının maddələrindən biri xidmət ticarətidir. Bu gün xidmət sahəsi maddi istehsalla müqayisədə lider mövqe tutursa, o zaman ölkə iqtisadi cəhətdən inkişaf etmiş sayılır. Bütün bunlar xidmət ticarətinin əhəmiyyətindən və bu iqtisadi fenomenin mahiyyətini və məzmununu bilmək zərurətindən danışır.

Xidmət sektoru dünya iqtisadiyyatının üçüncü sektoruna aid edilir. Postindustrial cəmiyyətdə həm ayrı-ayrı dövlətin, həm də bütün dünya birliyinin iqtisadi artımının təmin edilməsində prioritet məsələyə çevrilir. Dünya iqtisadiyyatında ilkin və ikinci dərəcəli sektorların payı azaldığı halda, xidmət sektorunun payı hər gün keçdikcə artır. Son illər ərzində qlobal ümumi məhsulun strukturunda xidmət sektorunun payı 63 %, inkişaf etmiş ölkələrdə 75 %, inkişaf etməkdə olan ölkələrdə isə 50 % təşkil edir. Post-sənayeləşmə irəlilədikcə, artan sayda fəaliyyət növləri əsas və ikinci sektorlardan xidmət sektoruna keçir. Üçüncü sektorun ən çox inkişaf etdiyi ölkənin iqtisadiyyatının rəqabətqabiliyyətliliyi yüksəkdir və böyük inkişaf perspektivləri vardır [2, s. 2].

**COVİD-19 pandemiyasından sonra xidmət ticarətinin bərpası**

Xidmət ticarətinin Ümumdünya Ticarət Təşkilatının barometrinə görə xidmət ticarəti malların ticarətindən daha üstündür. Bu, koronavirus infeksiyasının törətdiyi fəsadların nisbətən aradan qaldırılması nəticəsində istehlak nümunələrinin mallardan xidmətlərə dəyişməsinə işarə edir. Əslində isə, bu yeni deyildir və son 20 ildə bu dəyişiklik nəzərə çarpır. Dünya istehsal sektorunun qlobal ÜDM-dəki payı 1997-ci ildə 17,4 % olsa da, artıq 2019-cu ildə bu göstərici 15,6 %-ə qədər azalmışdır. Dünya xidmət sektorunun əlavə dəyərinin qlobal ÜDM-dəki payı isə əksinə, yüksəliş göstərmişdir. 1997-ci ildə 57,4% olan göstərici 2019-cu ildə 64,3 %-ə qədər artmışdır. Bununla yanaşı, xidmət sektorları da istehsal sənayesinin ixracında mühüm dəstəkləyici rola malikdir. İstehsal sektorunun ixracında xidmət sektorlarının təmin etdiyi əlavə dəyərin payı İƏİT ölkələrində orta hesabla 31% təşkil edir. Bu, eləcə də mal ticarətinin Ukraynadakı müharibədən təsirlənməsi və istehlak nümunələrində mallardan xidmətlərə potensial keçidin təmin olunması ilə bağlıdır [7].

Bu baxımdan E.Smirnov son illərdə xidmət ticarəti sahəsində xidmətlərin beynəlxalq mübadiləsinin üzləşdiyi çətinlikləri qeyd etmişdir. Bu sarsıntılar əsasən pandemiya, inflyasiya ilə bağlı olmuş və beynəlxalq ticarəti əhəmiyyətli dərəcədə zəiflədərək qlobal tədarükat zəncirlərinin inkişafına mane olmuşdur. Smirnova görə, beynəlxalq ticarət inkişaf perspektivləri əksər hallarda qeyri-müəyyən, mübadilə riskləri isə artan şəkildə qiymətləndirilməlidir. Onun fikrincə, beynəlxalq xidmət ticarəti həm də ölkələr arasında mövcud ticarət əlaqələrinin tənzimlənməsində effektiv sayıla bilər. Bu məqsədlə mal və xidmətlərin beynəlxalq ticarətinin davamlılığı problemləri onun inkişafı üçün yeni hərəkətverici qüvvələr ixrac edən və idxal edən ölkələr üçün dəyişmiş kontekst şəklində nəzərdən keçirilməlidir [5, s. 153].

Dövlətlərin səyi nəticəsində 2022-ci ildə xidmət ticarəti əvvəlki illə müqayisədə 15 % artmış, ümumilikdə, mal və xidmət ticarəti isə illik müqayisədə 13 % artaraq 31 trilyon ABŞ dolları təşkil etmişdir. 2021-ci ildə mal ticarəti pandemiyadan əvvəlki səviyyələri aşsa da, xidmət ticarəti 2022-ci ildə artım göstərmişdir. 2020-ci ildə koronavirus pandemiyası zamanı xidmət ticarətinin səviyyəsi - 18% olsa da, bu göstərici 2022-ci ildə +15 %-ə qədər yüksəlmişdir. Kompüter xidmətləri son on ildə ən dinamik xidmət sektoru olmuşdur. 2022-ci ildə artıq bu xidmət ticarəti sahəsində sıçrayış

olmuş, əvvəlki dövrlə müqayisədə 44 % yuxarı göstərici müşahidə olunmuşdur. Bu, qlobal miqyasda proqram təminatı, bulud xidmətləri, kibertəhlükəsizlik və s. bu kimi sahələrə tələblərin artması ilə bağlıdır [8].

2022-ci ildə dünyada pandemiyanın yaratdığı məhdudiyyətlərin aradan qaldırılmasından sonra turizm güclü şəkildə bərpa olunmağa davam etdi. Hazırda xidmət ticarətinin ən yüksək göstəriciləri məhz turizm sahəsində yer alır (qrafik 1).




**Qrafik 1. 2021-2022-ci illər üzrə mal və xidmət ticarətinin səviyyəsi**
*Mənbə: World Trade Organization. World Trade Statistical Review 2023. 2023. p. 10*

Xüsusilə son illərdə beynəlxalq xidmətlər bazarında turizm sektoru üzrə xidmət ticarəti mühüm rol oynayır. Eyni zamanda Ümumdünya Ticarət Təşkilatının beynəlxalq xidmət ticarətini tənzimləməsi, liberallaşdırması nəticəsində əksər ölkələrdə idxal üzrə yer alan kəmiyyət məhdudiyyətləri aradan qaldırılmış, gömrük rüsumları nisbətən azaldılmış, bir sıra digər məhdudiyyətlər azaldılmışdır. Bu isə yeni, daha az məhdudiyyətlərin yer aldığı ticarət rejiminə keçidi təmin etmişdir. Xidmətlər bazarının səmərəli artımını təmin edən mühüm amil dövlət tənzimlənməsi sistemidir, belə ki, dövlət orqanları xidmətlərin göstərilməsinin strukturuna və keyfiyyətinə birbaşa təsir göstərir. Dövlət bu istiqamətdə müəssisələrin fəaliyyətinə nəzarət edir, tənzimləyici amil kimi normativ-hüquqi aktları müəyyənləşdirir. Eyni zamanda dövlət xidmətin ən böyük istehlakçılarındandır. Dövlət orqanları xidmətlərin göstərilməsinin strukturuna və keyfiyyətinə birbaşa təsir göstərir. Dövlət xidmət göstərən müəssisələrin fəaliyyətini tənzimləyən, bu sahənin inkişafına və onun fəaliyyət şəraitinə bilavasitə təsir edən normativ-hüquqi aktlar müəyyən edir. Dövlət həm də xidmətin ən böyük istehlakçılarından biri olması faktoru kimi özünü göstərir. Dövlət daha yüksək keyfiyyət tələb edən xidmətlərin göstərilməsi üçün müqavilələrin bağlanması üçün müxtəlif tenderlər keçirməklə bu sahə ilə məşğul olan müəssisələrin daha sürətlə inkişaf etməsinə stimul verir [1, s. 147].

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, xidmətlər sektorunun inkişaf dinamikasına heterojen amillərin məcmusu təsir göstərir. Hazırda danılmazdır ki, həm müasir reallıqlarda, həm də yaxın gələcəkdə tələbatın artması müşahidə olunur. Xidmət sektorunun böyüməsi əsasən tədqiqat və inkişafa investisiya qoyuluşu və xidmət sektoru ilə məşğul olan şirkətlərə qarşı liberal siyasətlə müəyyən edilir. Effektiv bazar iqtisadiyyatı qurmaq və dünya miqyasında rəqabətədavamlı olmaq üçün ölkələr inkişaf etmiş nəqliyyat, maliyyə, sığorta və postindustrial iqtisadiyyatın bir çox digər sektorları ilə geniş miqyaslı xidmətlər bazarının yaradılmasına kömək edəcək innovativ sistemlər yaratmalıdırlar. Eyni zamanda, bu sahənin liberallaşdırılması ilə yanaşı, daxili

bazarın qorunması maraqları ilə müasir infrastrukturun yaradılması üçün innovasiyalara ehtiyac arasında balansı saxlamaq lazımdır.

### *Nəticə*

Yekun olaraq belə nəticəyə gəlmək olar ki, beynəlxalq xidmət ticarəti hazırda dünya iqtisadi əlaqələrinin əsas halqalarından biridir. Buna görə də xidmət ticarəti sektorunun inkişafı üçün nəzərdə tutulan mövcud vəsaitlərdən asılı olmayaraq, dünya ölkələrində əhəmiyyətli dərəcədə diqqət yetirilməlidir. Beləliklə, beynəlxalq xidmətlər bazarı hələ də fəal formalaşma mərhələsində olmasına baxmayaraq, müasir beynəlxalq iqtisadi münasibətlərdə mühüm xüsusiyyətlərə malik olmaqla əsas hissəni təşkil edir.

İstər müasir dövrdə, istərsə də yaxın gələcəkdə elmi-texniki tərəqqinin sürətləndirilməsi, istehsalın səmərəliliyinin yüksəldilməsi xidmətlərə olan tələbatları artıracağı üçün xidmətlərin beynəlxalq ticarətinin də durmadan artması danılmazdır. Effektiv bazar iqtisadiyyatı qurmaq və dünya miqyasında rəqabətədavamlı olmaq üçün ölkələr inkişaf etmiş nəqliyyat, maliyyə, sığorta və postsənaye iqtisadiyyatının müasir standartlara və normalara cavab verən bir çox digər sektorları ilə geniş miqyaslı xidmətlər bazarının yaradılmasına kömək edəcək innovativ sistemlər yaratmalıdırlar.

Ölkələrin inkişaf etdirilmiş nəqliyyat, kommunikasiya, maliyyə, sığorta, ticarət, kredit sektorları, müasir tələblərə cavab verən geniş miqyaslı xidmət sektoru olmadan effektiv bazar iqtisadiyyatı formalaşdırması mümkün deyildir. Buna görə də bazar prinsiplərinə keçidin və dünya iqtisadiyyatına inteqrasiyanın hazırkı mərhələsində ölkələr xidmət ticarətinin inkişafına diqqət yetirməli, sürətlənməni təmin etməlidirlər.

Dünya bazarında xidmətlər ticarətinin strukturunun təhlili aşağıdakı əsas tendensiyalar haqqında nəticə çıxarmağa imkan verir. Birincisi, müasir xidmətlər adlanan növlərdə elmi-texniki tərəqqinin və İT texnologiyalarının təsiri ilə formalaşan əhəmiyyətli artım müşahidə olunur. Müasir xidmətlərə kompüter, informasiya, bəzi maliyyə xidmətləri və əqli mülkiyyət hüquqları sahəsindəki xidmətləri aid etmək olar. Kontragentlərin fəaliyyətini də nəzərə alan nəqliyyat, turizm, distribütorluq və s. kimi ənənəvi xidmət növləri həm də onların ticarət səviyyəsinin yüksəlməsindən faydalanır. Müasir və ənənəvi xidmətlər arasındakı sərhəd tədricən daha da artır. Müxtəlif gəlir səviyyələrinə malik ölkələrdə rəqəmsal xidmətlərin artması ilə yüksək texnologiyalı xidmətlərin ixracının qlobal iqtisadiyyatın ən sürətlə inkişaf edən sektoruna çevrilməsi də sürətlənir. Beləliklə, müasir xidmət növlərinin artımı ixrac axınlarının yenidən istiqamətləndirilməsi baxımından mühüm tendensiya hesab olunur. Bu isə inkişaf etməkdə olan ölkələrin artım strategiyalarının həyata keçirilməsi üçün xüsusilə vacibdir.

İkincisi, hazırda əmək bazarında struktur transformasiyası baş verir. Xidmətlərin ticarəti getdikcə qütbləşən əmək bazarlarına cavab olaraq gələcək onilliklər üçün yeni iş yerlərinin yaradılması üçün imkanlar yaradır. Hətta gələcəkdə iş yerlərinə tələbatın əsasən texnoloji infrastruktura əsaslanmasını da qeyd etmək olar.

Hazırda gündəlik işlərin avtomatlaşdırılması və onun kodlaşdırılması daha geniş vüsət alır və makroəhəmiyyətli hala gəlir. Bu isə milli iqtisadi qurumları qlobal tələbatın bu tendensiyalarına uyğun olaraq işçi qüvvəsini yenidən bölüşdürməyə məcbur edir.

Üçüncüsü, xidmət ticarəti mal ticarətindən qat-qat daha genişdir. Xidmət ixracının artımı ilə gəlir fərqi arasında isə əks-əlaqə mövcuddur. Bunu işçi qüvvəsinin yerdəyişməsi ilə əlaqələndirmək olar. Bu isə öz növbəsində işçi qüvvəsinin mobilliyinin artmasına səbəb olur və aşağı və orta gəlirli işçilərin rifah halının yaxşılaşmasına müsbət təsir göstərir.

Tədqiqatı yekunlaşdırmaq üçün belə nəticəyə gəlmək olar ki, xidmət ticarəti dünya iqtisadi əlaqələrinin ən mühüm hissəsidir və bu sahənin inkişafı üçün mövcud vəsaitlərdən asılı olmayaraq, bütün dünya ölkələrinə ən çox diqqət yetirilməlidir. Tədqiqat zamanı qarşıya qoyulan məqsədin həyata keçirilməsi aşağıdakı problemləri həll etməyə imkan verir:

1. beynəlxalq ticarətin anlayışlarının və mahiyyətinin nəzərdən keçirilməsi;

2. dünya bazarında xidmət ticarətinin əsas növlərinin təsnifatının qiymətləndirilməsi;
3. beynəlxalq ticarətin aparılmasının müasir üsul və prinsiplərinin müəyyən edilməsi.

Beləliklə, qlobal xidmətlər bazarı hələ də yüksək sürətlə baş verən fəal formalaşma mərhələsində olmasına baxmayaraq, müasir beynəlxalq iqtisadi münasibətlərin mühüm hadisəsi hesab oluna bilər.

**ƏDƏBİYYAT**


1. Kıratlı F. Dünya ve Türkiyede hizmet ticareti gelişimi. 2018. İktisadi idari ve siyasal araştırmalar dergisi. s. 147-148
2. UNCTAD. International trade in services 2023. UNCTADSTAT. October 2023. p. 2
3. World Trade Organization. World Trade Statistical Review 2023. 2023. p. 10
4. Юсупова М. (2020). Международная торговля: современное состояние и перспективы развития. Международный журнал прикладных наук и технологий “Integral”. №3. стр. 514, 520
5. Смирнов Е.Н. Международная торговля в условиях новых стрессов в развитии глобальной экономики. Международная торговля и торговая политика. 2023. стр. 153, 156
6. Цебекова Е. П., Жидков Е. В. (2023). Международная торговля услугами: понятие, особенности и основные принципы. с. 148, 149
7. https://www.oecd.org/sdd/its/International-trade-statistics-Q3-2023.pdf
8. https://tcmbblog.org/wps/wcm/connect/blog/tr/main+menu/analizler/uluslararasi+hizmet+ticareti+istatistikleri+nedir



***Магистр: Калашов Насими Ариф***
***Азербайджанский Государственный***
***Экономический Университет (UNEC)***
***nasimi.kalashov2001@gmail.com***

***Научный руководитель: доц. Гусейнов Адиль Шейруз***


## Международная торговля услугами как перспективный сегмент


***Резюме***

**Цель исследования** - изучить развитие торговли услугами, определить ее роль в экономике.

**Методология исследования** - системный подход, комплексный анализ, обобщение, сравнительный анализ, синтез, в исследовательской работе использовались методы.

**Практическая значимость исследования** - по результатам исследования можно разработать целенаправленную государственную программу развития экспорта услуг на среднесрочную и долгосрочную перспективу и включить их в программы, связанные с увеличением экспорта в целях обеспечения устойчивого роста. экономики государства и диверсифицировать ресурсную направленность экспорта.

**Результатом исследования** является то, что современная международная торговля услугами стремительно расширяется, тем самым оказывая большое влияние на развитие национальной экономики и мирового хозяйства в целом, и как следствие, она приобретает все большее значение в общественной жизни населения. все страны. В связи с этим можно отметить, что этот процесс считается объективным результатом постоянно растущей потребности научно-технического прогресса, а также углубления разделения труда.

**Оригинальность и научная новизна исследования** - в исследовании показаны особенности отраслевой структуры торговли услугами в развитых и развивающихся странах, исследована динамика международной торговли услугами в последние годы, отраслевая структура, а также Было отмечено, что торговля услугами является одной из наиболее быстро развивающихся сфер, исходя из сложившейся ситуации.

***Ключевые слова: международная торговля услугами, отраслевая структура, регулирование, динамика***

***Master: Nasimi Arif Kalashov***
***Azerbaijan State University of Economics (UNEC)***
***nasimi.kalashov2001@gmail.com***

***Scientific director: i.e.n., docent Huseynov Adil Sheyruz***

## International trade in services as a perspective segment

***Summary***

**The purpose of the research** is to study the development of trade in services, to determine its role in the economy.

**Methodology of the research** - systematic approach, complex analysis, generalization, comparative analysis, synthesis, methods were used in the research work.

**Application importance of the research** - from the results of the research, it is possible to develop a purposeful state program for the development of service exports for the medium and long term and include them in programs related to increasing exports in order to ensure the sustainable growth of the state economy and diversify the resource orientation of exports.

**The result of the study** is that modern international service trade is rapidly expanding, thereby having a great impact on the development of the national economy and the world economy as a whole, and as a result, it is becoming more important in the social life of all countries. In this regard, it can be noted that this process is considered an objective result of the ever-increasing demand of scientific and technical progress, as well as the deepening of the division of labor.

**The originality and scientific novelty of the research** - the features of the sectoral structures of trade in services in developed and developing countries were shown in the research, the dynamics of the international trade in services in recent years, the sectoral structure were investigated, and it was noted that trade in services is one of the fastest growing fields based on the current situation.

***Keywords: international service trade, sectoral structure, regulations, dynamics***